AZƏRBAYCAN RESPUBLİKASI
BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ

SƏRƏNCAMI

№ 333 "30" dekabr 2021-ci il

**"Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 27 fevral 2020-ci il tarixli 1859 saylı Sərəncamının icrası ilə əlaqədar Binəqədi Rayon İcra Hakimiyyəti Başçısı Aparatının 2022-ci il üçün İş Planının təsdiq edilməsi haqqında**

Açıq hökumətin prinsiplərinin tətbiqinin daha da genişləndirilməsi, maliyyə şəffaflığının yüksəldilməsi, informasiya əldə etmək hüquqlarının təminatı vasitələrinin artırılması, vətəndaş cəmiyyəti institutlarının dəstəklənməsi və ictimai nəzarətin gücləndirilməsi, "Açıq hökumətin təşviqinə dair 2012-2015-ci və 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planları"nda həyata keçirilmiş tədbirlərin davamlılığının təmin edilməsi məqsədilə "Yerli İcra Hakimiyyətləri haqqında Əsasnamənin 6.8-ci bəndinə əsaslanaraq

Qərara alıram:

1. "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"na uyğun olaraq, Binəqədi Rayon İcra Hakimiyyətinin 2022-ci il üçün İş Planı təsdiq edilsin *(əlavə olunur)*.
2. Rayon İcra Hakimiyyəti başçısının müavinlərinə və Aparatın struktur bölmələrinin rəhbərlərinə tapşırılsın ki, İş Planında nəzərdə tutulmuş işlərin icrasını təmin etsinlər və ilin yekunu üzrə görülmüş işlər barədə məlumatları 20 dekabr 2022-ci il tarixinədək Aparatın informasiya təminatı və təhlil sektoruna təqdim etsinlər.
3. Rayon İcra Hakimiyyəti başçısı Aparatının informasiya təminatı və təhlil sektorunun müdiri A.Quliyevaya tapşırılsın ki, Aparatın struktur bölmələri tərəfindən təqdim olunmuş məlumatlar əsasında illik hesabat hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Azərbaycan Respublikasının Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyasına təqdim olunmasını təmin etsin.
4. Sərəncamın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

Elxan Allahverdiyev

*ƏSLİ İLƏ DÜZDÜR:*

**Sənədlərlə və vətədaşların müraiətləri ilə iş şöbəsinin müdiri** Sabir Əliyev

Binəqədi Rayon İcra Hakimiyyəti Başçısının
30.12. 202 -ci il tarixli 33 saylı Sərəncamı
ilə təsdiq edilmişdir.

"Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 27 fevral 2020-ci il tarixli 1859 saylı Sərəncamının icrası ilə əlaqədar Binəqədi Rayon İcra Hakimiyyəti Başçısı Aparatının 2022-ci il üçün

## İş Planı

| S/s | Görüləcək işlərin adı | İcraçılar | İcra müddəti | Qeyd |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| 1. Korrupsiyanın qarşısının alınması və dövlət orqanlarının fəaliyyətində şəffaflığın gücləndirilməsi sahəsində tədbirlər | | | | |
| 1.1. | Korrupsiyaya qarşı mübarizə və etik davranış qaydaları ilə bağlı təlimlər keçirilməsi üçün bu sahədə fəaliyyət göstərən ixtisaslaşmış qeyri-hökumət təşkilatlarına dəstək verilməsi | İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri N.Allahverdiyev<br><br>Hüquq şöbəsinin müdiri Y.Hüseynov | 2022 | |
| 1.2. | Dövlət qurumları tərəfindən etik davranış məsələləri ilə bağlı aparılmış maarifləndirmə işləri, etik davranış qaydalarının pozulması halları və buna görə tətbiq edilmiş intizam tənbehi tədbirləri barədə illik hesabatların hazırlanması və bu barədə məlumatların açıqlanması | Rayon İcra Hakimiyyəti başçısının müavini S.Süleymanova<br><br>İnformasiya təminatı və təhlil sektorunun müdiri A.Quliyeva | 2022 | |